Deloitte.

MAKING AN IMPACT THAT MATTERS since 1845





# Deloitte Kiber Təhlükəsizlik və Texnologiya Xəbərlərinin icmalı

İyul buraxılışı

## Azərbaycan

### Elektron Təhlükəsizlik Xidməti saxta investisiya layihələri ilə bağlı vətəndaşları xəbərdar edir

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti bildirir ki, son zamanlar kiberdələduzlar tərəfindən vətəndaşlara boyük dövlət şirkətləri adından investisiya layihəsinin həyata keçirilməsi barədə mesajlar göndərilir.

Bildiririlir ki, onlardan layihədə iştirak etmək üçün ad, soyad, e-poçt, mobil nömrə kimi fərdi məlumatlar istənilir. Nəticədə həmin məlumatları təqdim edən vətəndaş kiberdələduzların qurbanına çevrilir.

Hər hansı qurum adından bu kimi investisiya layihələri və ya cəlbedici kampaniyalar barədə məlumat aldıqda, fərdi məlumatlarını təqdim etmədən və qeyd olunan keçidə daxil olmadan öncə

həmin müəssisə ilə əlaqə saxlayaraq və ya rəsmi internet informasiya ehtiyatına daxil olaraq məlumatın düzgünlüyünü yoxlamaq tövsiyə edilir.

Mənbə: xeberler.az, 29 iyul 2022

## "Azərbaycana qarşı bu gün də kiberfəzada ciddi təhdidlər var"

"Azərbaycana, dövlətimizə qarşı bu gün də kiberfəzada ciddi təhdidlər var və bu təhdidlərə qarşı mübarizə aparmaq, dövlətin əsas məqsədidir. Bu məqsədə nail olmaq üçün Azərbaycanda ciddi kadr potensialı formalaşmalıdır. Təsis olunan Kibertəhlükəsizlik Mərkəzi Məhz bu məqsədə xidmət edəcək"- Nazir müavini qeyd edib.

Qeyd olunur ki, Azərbaycan Kibertəhlükəsizlik Mərkəzində, təxminən, 1000-ə yaxın mütəxəssisin hazırlanması nəzərdə tutulur. Mütəxəssis hazırlığı təxminən 3 il müddətini əhatə edəcək.

Mənbə: xeberler.az, 4 iyul 2022

## Azərbaycan mobil internetin sürətinə görə dünyada 3 pillə irəliləyib

2022-ci ilin iyun ayında Azərbaycan mobil internetin sürətinə görə digər ölkələr arasında 3 pillə irəliləyib və 33,64 MB/S sürətlə 58-ci pillədə qərarlaşıb.

Məlumatda deyilir ki, ötən ay Azərbaycan sabit genişzolaqlı internetin orta sürətinə görə dünyada 118-ci yerdə qərarlaşıb ki, bu da may ayı ilə eynidir. İyunda ölkədə sabit genişzolaqlı internetin orta sürəti 22 MB/S olub.

Mənbə: xeberler.az, 19 iyul 2022

## Azərbaycanda mobil telefon istifadəçilərinin sayı artıb

Azərbaycanda mobil telefon abunəçilərinin sayı 2021-ci ilin göstəricisinə görə (2020-ci illə müqayisədə) 4.6% artaraq cari ilin yanvarın 1-nə 10 817.1 min nəfər təşkil edib.

Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən ilin sonuna əhalinin hər 100 nəfərinə 108 mobil telefon abunəçisi düşüb ki, bu da bir il öncəki göstəricini 4 faiz bəndi üstələyir.

Qeyd edək ki, 2020-ci ildə ölkə üzrə mobil telefon abunəçilərinin sayı 10 344.3 min olub.

Mənbə: xeberler.az, 28 iyul 2022

# Gürcüstan

## Ölkə yüksəksürətli internetə çıxış əldə edəcək

Gürcüstan sakinləri 2023-cü ildə SpaceX şirkətinin təqdim etdiyi “Starlink” yüksəksürətli internetə çıxış əldə edəcəklər. Bu barədə cümə günü, iyulun 22-də ölkənin İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyindən məlumat verilib.

“Starlink” peyk sisteminə ilk olaraq dövlət ərazisində İnnovasiya və Texnologiyalar Agentliyinin texnoparkları, daha sonra isə adi abonentlər qoşulacaq.

Güman edilir ki, yüksəksürətli internetdən istifadə dövlət xidmətlərinin, təhsilin və təhlükəsizliyin səviyyəsinin yüksəldilməsinə, həmçinin ölkədə İT sahəsində yeni məhsulların tətbiqinə imkan verəcək.

Mənbə: iz.ru, 23 iyul 2022

# Özbəkistan

## Ölkədə 5G şəbəkələrinin inkişafı davam edir

Yerli telekommunikasiya operatorları Özbəkistan ərazisində 5G şəbəkələrinin sınaqlarını davam etdirirlər. Pilot buraxılış konqres zalının binasında və Səmərqənddəki turizm kompleksinin otellərindən birində baş tutub.

Qeyd edilir ki, Səmərqənddə tikilməkdə olan yeni turizm mərkəzinin kompleksinə daxil olan binalar daxilində fasiləsiz rabitəyə imkan verən internetin sürəti 1209 Mbit/s çatdırıldı.

Bu tədbir ölkənin İKT infrastrukturunun gücləndirilməsi, İT sənayesinə innovativ texnologiyaların tətbiqi və iqtisadiyyatın müxtəlif sahələri üçün telekommunikasiya operatorlarından üstün təcrübə və xidmətlərin təqdim edilməsi istiqamətində növbəti addım oldu.

Mənbə: ictnews.uz, 30 iyul 2022

## Prezident İT sektorunun nümayəndələri ilə görüşüb

İyulun 29-da Özbəkistan Prezidenti informasiya texnologiyaları mütəxəssisləri və gənclərlə görüşüb. Görüş açıq ünsiyyət formatında keçirilib.

“Yaxın beş ildə biz informasiya texnologiyaları xidmətlərinin daxili ixracını 1 milyard dollara çatdırmağı planlaşdırırıq. Əgər biz gənclərin təlim-tərbiyəsi işini düzgün təşkil etsək, onları keyfiyyətli infrastrukturla, kompüterlərlə təmin etsək, zamanətli sifarişlər versək, bu məqsədə asanlıqla nail olacağıq” - deyə Prezident vurğulayıb.

Dövlət başçısı qeyd edib ki, bu məqsədə nail olmaq üçün 4 məsələni həll etmək lazımdır: İnternetə çıxışın əhatə dairəsini və keyfiyyətini yaxşılaşdırmaq, informasiya texnologiyaları sahəsində istedadlı gənclərə dəstəyi müəyyən etmək və genişləndirmək, rəqəmsallaşmanı bütün sahələrdə prioritet kimi təşkil etmək və regionlarda gənclərin xarici bazarlarına çıxmasına kömək etmək.

Mənbə: it-park.uz, 29 iyul 2022

deloitte.az

Deloitte adı Deloitte Touche Tohmatsu Limited şəbəkəsinə daxil olan üzv şirkətlərdən birinə və ya bir neçəsinə və əlaqədar müəssisələrinə aid ola bilər. DTTL ("Deloitte Qlobal") və bu şəbəkəyə daxil olan hər bir üzv şirkət ayrı-ayrılıqda hüquqi şəxslər və müstəqil müəssisələrdir. DTTL müştərilərə xidmətlər göstərmir. Ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

Deloitte qlobal səviyyədə audit və əminlik, konsaltinq, maliyyə, risk, vergi üzrə məsləhət xidməti və digər əlaqədar xidmətlər göstərən aparıcı markalardandır. 150-dən çox ölkədə və ərazidə xidmətlər göstərən üzv şirkətlər şəbəkəsi Fortune Global 500® üzrə beş şirkətdən dördünə öz xidmətlərini göstərir. Deloitte-un təxminən 330,000 peşəkar mütəxəssisinin təklif etdiyi fərq yaradan həllər haqqında ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

Bu məlumatda yalnız ümumi informasiya əks olunur və Deloitte Touche Tohmatsu Limited şirkətlərindən, onun üzv şirkətlərindən və ya əlaqədar müəssisələrdən (birlikdə "Deloitte Şəbəkəsi") hər hansı biri bu məlumat vasitəsilə peşəkar məsləhətləşmə və ya xidmətlər təmin etmir. Maliyyə fəaliyyətinizə və ya müəssisənizə təsir göstərə biləcək hər hansı qərarlar qəbul etməzdən və ya tədbirlər görməzdən əvvəl peşəkar mütəxəssis ilə məsləhətləşmək daha məqsədəuyğundur. Deloitte Şəbəkəsinə daxil olan heç bir müəssisə bu məlumata istinad edən hər hansı şəxsin məruz qaldığı zərərə görə məsuliyyət daşımır.

8 Noyabr pr. 25E, Bakı Ağ Şəhər Ofis Binası
Bakı, AZ1025, Azərbaycan Respublikası

© 2022 Deloitte & Touche MMAC. Bütün hüquqlar qorunur.